# "Arşın mal alan" Lerikə gəldi

**Dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin 140 illiyi münasibəti ilə Lənkəran Dövlət Dram Teatrı Lerik Rayon Mədəniyyət Mərkəzində "Arşın mal alan" operettası əsasında hazırlanmış eyniadlı tamaşanı nümayiş etdirib.**

Teatrın peşəkar aktyorlarının böyük məharətlə canlandırdıqları obrazlar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Lənkəran Dövlət Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi, RF Dağıstan Respublikasının Əməkdar artisti Laləzar Hüseynova, rejissoru Emil Əskərov, quruluşçu rəssamı Fuad Hüseynov, rəssamı Sevən Həsənlidir.

***"Azərbaycan"***

---

Azərbaycan.- 2025.-14 may (№98).- S.11.